**UOT 821.411.21**

# XX ƏSRİN SONLARINDA MİSİRDƏ YAŞANAN SİYASİ REALLIQLARIN ŞƏRİF HATATA ROMANLARINDA İNİKASI

**Xumar ƏLƏKBƏROVA***

***Açar sözlər***: *Şərif Hatata, Misir, yeni dövr ərəb ədəbiyyatı, avtobioqrafik roman, antimüstəmləkə mübarizəsi*

Şərif Hatata (1923-2017) yeni dövr Misir ədəbiyyatı sıralarına gec, keçmişində böyük və keşməkeşli həyat təcrübəsi olan biri kimi 50 yaşlarında qoşulub. Elə bir dövrdə ədəbi yaradıcılığa başlayıb ki, həmin dönəm Misir tarixində ən mürəkkəb illər hesab oluna bilər.

Belə ki, II Dünya müharibəsindən sonra ölkədə yaranmış repressiya və həbslərin, yeni xarakter almış milli azadlıq hərəkatının ardınca 1952-ci il iyulun 23-də Camal Əbdül Nasirin (1918-1970) rəhbərliyi altında "Azad zabitlər" gizli təşkilatı Misirdə çevriliş edir və antifeodal, milli-demokratik inqilabın əsasını qoyur. Kral taxt-tacdan əl çəkərək ölkədən çıxır. C.Ə.Nasir ölkədə köklü surətdə "təmizləmə" siyasətinə başlayır. İnqilaba zidd qüvvələr, müxalif mövqedə duran partiya liderləri, əvvəlki hökumətin məmurları vəzifədən uzaqlaşdırılırlar. Ölkədəki rejim bəzi qüvvələr tərəfindən diktatura kimi qələmə verilsə də, 1953-cü il iyunun 18-də Misir respublika elan edilir. Bunun ardınca Misirdə sosial-iqtisadi dəyişikliklər həyata keçirilir: iri sənaye təsisatları, banklar və nəqliyyat milliləşdirilir, torpaq üzərində mülkədarların mülkiyyətini məhdudlaşdıran aqrar islahatlar həyata keçirilir. Lakin aqrar məsələnin həlli başa çatdırılmır, iri şəhər burjuaziyasının bir hissəsi isə öz mövqeyini qoruyub saxlayır.

1970-ci il C.Ə.Nasirin vəfatından sonra prezident olmuş Ənvər Sadat (1918-1981) isə liberal siyasət yürütməyə başlayır və bu, xarici inhisarların Misir iqtisadiyyatına geniş nüfuz etməsinə səbəb olur. 1978-ci ildə Kemp-Devid sazişi isə Misirin ərəb dünyasında təcrid olunmasına gətirib çıxarır, ərəb dövlətləri cəmiyyətinə üzv olması dayandırılır. Misir əksər ərəb dövlətləri tərəfindən siyasi və iqtisadi boykota məruz qalır. Ölkə daxilində Sadatın siyasətindən narazılıq Misir prezidentinə sui-qəsd edilməsi ilə nəticələnir. 1981-ci ilin oktyabrında hərbi parad zamanı o, ölümcül yaralanır.

Belə bir dönəmdə Ş.Hatatanın ədəbi aləmə atılması bir ziyalı kimi baş verən tarixi hadisələrə biganə qala bilməməsi, eləcə də keçmişi ilə bağlı etiraflar etmək, acı xatirələrini, iztirablarını bölüşməklə daxilində doğan mənəvi tələbatı ödəmək istəyi ilə əlaqələndirilə bilər. Bunu onun 70-ci illərin əvvəlində qələmə aldığı ilk əsəri "Dəmir gözlük" də bir daha sübut edir. Əsər ədəbi tənqidçilər və oxucular tərəfindən əbəs yerə avtobioqrafik roman kimi qəbul edilməmişdir.

1923-cü ildə Qahirədə imkanlı ailədə dünyaya gələn Ş.Hatata tibb fakültəsində təhsil alır, gələcəyi parlaq bir gənc həkim kimi ümidlər verdiyi halda vətənpərvər əhval-ruhiyyəli tələbələrlə yaxınlaşır, çox keçmədən marksist təşkilatlardan birinin üzvü olur, ölkədə gedən siyasi proseslərlə maraqlanmağa başlayır. Həmin vaxt isə Misirdə antimüstəmləkə mübarizəsi vüsət aldığı bir dönəm idi, xalq, ziyalılar ingilis qoşunlarının ölkədən çıxarılmasını tələb edirdi. Bu tələblə siyasi hərəkat yaradılır, ölkədə etiraz nümayişləri təşkil olunur, Ş.Hatata da bu hərəkatın fəal iştirakçısı olur. Siyasi yönümlü vərəqələrin, qadağan olunmuş ədəbiyyatın yayılmasında, nümayiş və tətillərin təşkil edilməsində yaxından iştirak edir. 1946-cı ilin iyulunda Sidqi Paşa hökuməti demokratik yönlü təşkilatlar, ilk növbədə kommunist əhval-ruhiyyəli şəxslərə qarşı təqiblərə başlayır. Hərbi tribunalın qərarı ilə çoxu həbsxanalara atılır, sürgünə göndərilir, edam edilir. Ş.Hatata da həbs olunanlar arasında olur. Onu qarşıda parlaq gələcək gözlədiyi halda həbsxanada bir çox işgəncələrə, mənəvi təzyiqlərə, fiziki zorakılıqlara məruz qalır. Təxminən 4 il məhbus həyatı yaşayan Ş.Hatata həbsxanada

* *AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, filologiya üzrə fəlsəfə doktoru*
*E-mail: uxba@mail.ru*

da siyasi baxışlarından dönmür, mübarizəsini bacardıqca davam etdirir. O, aclıq aksiyasında iştirak edən yoldaşlarına qoşulur, həkim olduğu üçün xəstə məhbusları müalicə edir, həbsxana müdiriyyətindən məhbusların vəziyyətinin yaxşılaşdırılması və minimum haqlarının təmin olunmasını tələb edərək, yerinə yetirilməsinə nail olur.

Əlbəttə, işgəncə dolu bu illər onun səhhəti üçün izsiz ötüşmür. 1950-ci ildə yerləşdirildiyi həbsxanada nəzarət altından qaçır və dostlarının köməyi ilə ölkə hüdudlarını tərk edə bilir. Parisdə məskunlaşır, lakin 1 il sonra Vətənə qayıdan kimi 10 il müddətinə həbs olunur.

1946-50-ci illərdə Misir xalqının antimüstəmləkə hərəkatını əks etdirən "Dəmir gözlük" romanı da müəllifin həyatından götürülmüş bu real, konkret epizodlar üzərində qurulub. Əsərin qəhrəmanı Əziz də varlı ailənin övladıdır, tibb fakültəsində oxuyur, siyasi fəallara qoşulur, ölkədə baş verən proseslərin iştirakçısına çevrilir və həbs edilir. Bu süjet xətti daha sonra qəhrəmanın həbsxanada yaşadıqları və öncəki həyatından xatırladığı fraqmentlərlə davam edir, obraz oxucu üçün daha dərindən təhlil olunur.

Əziz uşaqlıq çağlarını xatırlayır. O, varlı bir ailədə qayğısız böyüyüb. Anası ingilis olduğu üçün onun antimüstəmləkə mübarizəsinə qoşulması, İngiltərə qoşunlarının Misirdən çıxarılması tələbi ilə hərəkatda iştirakı çoxları tərəfindən başa düşülmür. Belə birinin tibb fakültəsini bitirdikdən sonra uzun illər kənd-kənd gəzib yoxsulları təmənnasız müalicə etməsi də yaxınları, yoldaşları tərəfindən birmənalı qarşılanmır. Müəllif avtobioqrafik qəhrəmanın ətrafdakılar üçün yaratdığı təzadı Misir cəmiyyətindəki real təzadlarla tamamlayır. Əsər boyu bütün günü işləyən, amma əvəzində doyunca çörək tapmayan, ayağı yalın, paltarsız yoxsul kəndlilərin, məhrumiyyətlərlə dolu kasıb şəhər sakinlərinin həyatının fonunda çox rahat yaşayanların həyat tərzini görürük. Baş nazirin iqamətgahının təsviri də təzadlar fonunda maraqlıdır – İran xalçaları, şümal mərmər sütunlar, büllur çil-çıraqlar və küçələrdəki ağrı-acı dolu fəryadlar, aclıqdan qoxuyan nəfəslər, tər qoxusu, yollara axıdılan çirkab suların üfunəti qalın divarların arxasında qalır...

Obrazın iki zaman kəsiyində nəql olunan taleyi Misirdəki ictimai-siyasi durum barədə tarixi xronoloji ardıcıllıqla daha müfəssəl təəssürat yaratmağa imkan verir. Yazıçı, Əziz həbsxanada olarkən onun xatirələri vasitəsilə gənc fəalların içəri düşməmişdən öncəki antiimperialist mübarizələri, ölkədəki tarixi durum barədə, narazı kütlənin etiraz səbəblərini açıqlayır. Bəli, Misir sakinləri küçələrə çıxıb ingilislərlə gizli sövdələşmələrə son qoyulmasını, ölkənin müstəqil istiqamət tutaraq inkişaf etməsini tələb edir, xalq kölə olmaq istəmir – "Azadlığı vermirlər, onu mübarizə ilə qazanmaq lazımdır" (4, s.33) ideyasını əlində şüar tutan tələbələr bunun üçün qruplaşır, mübarizəni təşkil edirlər.

Lakin müəllif antiimperialist mübarizəyə qoşulmuş xalqın problemlərinin, yoxsul yaşamasının, səfalət və cəhalətin, ölkədə diktatura və özbaşınalığın hökm sürməsinin tək səbəbinin ingilislər olmadığını vurğulamağı unutmur. Xalqın mövcud hakimiyyət və rejimdən narazılığı var və haşiyəyə çıxaraq qeyd etmək yerinə düşər ki, XX əsrin ikinci yarısında olan bu durum XXI əsrdə də dəyişməz olaraq qalmış, həmin narazılıqlar həll olunmamış və 2011-ci il Misir inqilabını doğurmuşdur.

"Yeri gəlmişkən, onlar yanlarında hökumət nümayəndəsi olmasına baxmayaraq, heç buna fikir vermir, çox açıq danışırlar, - zabit çaşqın halda dedi.

- Bax, görürsünüz! Əgər artıq həkimlər belə bu cür çıxışlar edirlərsə, deməli rejimin sonu yaxınlaşıb, - Əziz dedi.

- Siz əminsiniz?

- Məgər özünüz hiss etmirsinizmi ki, monarxiyanın son günləridir? Biz vulkanın tam zirvəsində durmuşuq və bu vulkan hər an püskürə bilər. İndi elə bir adam tapmaq olarmı ki, kralı tənqid etməsin, lənətləməsin? Bəs, onu dəstəkləyən kimdir? Hamının nifrət etdiyi az bir zümrə" (4, s.97).

Bu dialoqda istər XX əsrin ikinci yarısı, istərsə də XXI əsr Misir reallığının tam mənzərəsi əks olunmuşdur. İstər həmin dönəmdə, istərsə də müasir Misirdə tarixi hadisələrin gedişatı hakimiyyətin yanaşma tərzinin dəyişmədiyini, iqtidarı əlində saxlamaq üçün xalqa zor tətbiq etdiyini, hətta düşmən qüvvələrlə sövdələşməyə, təqib və həbslərlə inqilabı beşiyindəcə boğmağa hazır olduğunu göstərdi. Əsərdə etirazçıların bir qrupunu qəbul edən Sidqi Paşanın sözləri hakimiyyətin taktikasını çox müfəssəl tərif edir: "Baş nazir çaxnaşmalar yaradan və ya kütləvi etirazlara çağıran hər kəsi məhv edəcəklərini açıq-aydın qeyd edir" (4, s.82).

XX əsrdə antiimperialist mübarizəni, xalqın etirazlarını susdurmaq üçün hökumətin "ənənəvi tədbirlərini" isə Ş.Hatata bu əsərində dolğun əks etdirmişdir -etirazlar qan gölündə susdurulur, Əzizin neçə dostu qolları arasında can verir, digərlərinə qarşı isə hökumət təqiblərə keçir, həbslər, hədə-qorxular edilir.

Yazıçı qeyd edir ki, həmin qarışıq dönəmdə hökumət, ölkəni müstəmləkəsinə çevirmək istəyənlərə xalqın sərvətini satmağa, hətta radikalların yardımından yararlanmağa hazırdır, yetər ki, hakimiyyət əldən getməsin, xalqı əvvəlki qayda ilə idarə etsin. Amma inqilab o zaman yetişir ki, xalq artıq əvvəlki kimi yaşamaq istəmir, bu isə Misirdə aşkar görünürdü.

Əziz həbsxanada "Metro" kinoteatrında radikal silahlılar tərəfindən törədilən partlayışdan sonra yaşadıqlarını xatırlayır: "Parçalara bölünmüş bədənlər. Orada bir fələstinli tələbə var idi, ağrıdan elə bağırırdı, sanki bütün insanların ağrısını çəkirdi. Başa düşürsən? O, elə bağırırdı, sanki bütün qurbanların yerinə soruşurdu, axı niyə?! Nəyə görə? Hələ də özümə gələ bilmirəm: yatıram, onun gözləri ağlımdan çıxmır. O gözlərdə elə dəhşət, elə iztirab var idi ki. Üzünün dərisi isə kül kimi bomboz bozarmışdı, ayaqları yox idi. Yanmış ət qoxusu dəhşətli idi... bu qoxudan hələ də qurtula bilmirəm... Heç bir günahı olmayan insanlar – gənclər, uşaqlar, qadınlar..." (4, s.120).

Əzizi həbsxanada ayaqda tutan müqəddəs mübarizəsi qədər, həm də həyat yoldaşı Nadiya var. Müəllif Nadiya obrazı ilə ənənəvi ərəb qadını təsəvvürlərini dağıtmış, müti, cahil, haqlarını bilməyən deyil, siyasi mübarizəyə qoşulmuş, qadın-kişi bərabərliyi kimi ideyalarla silahlanmış bir Misir qadını yaratmışdır.

Əzizin həbsxana həyatına gəlincə, burada müəllif yaşadıqlarının inikasını tam vermişdir. Həbsxanada zorakılıqlara dözməyib ölənlər, intihar edənlər, əqidəsindən dönənlər müəllifin real qəhrəmanlarıdır. Bir zamanlar Əbu Zaabal yaxınlığında daş karxanasında katorqa işlərinə məhkum edilmiş yazıçının o dəhşətli günləri də əsərinə daxil etməsi əsərin avtobioqrafikliyini tam təmin etmişdir. Kral üçün meyvə bağları salmaq qərarı verilir və Heydər Paşa həbsxanasının rəisi bu işdə pulsuz işçi qüvvəsi olaraq məhbuslardan istifadə edir. Katorqa işlərində bir-birinə ağır zəncirlə bağlı 10-15 məhbus elə dəhşətli şəraitdə işləyir ki, bütün işgəncə və təhqirlərə baxmayaraq, həbsxana belə onlara cənnət kimi görünür. Buradan qurtuluş yolu isə ya ölmək, ya şikəst olub xərəkdə həbsxanaya qayıtmaqdır. Məhbuslar hətta özləri əllərini, ayaqlarını bilərəkdən kəsir, ağır təkər, daş altında itirirlər ki, təki ayaqsız, əlsiz şikəst olsunlar, amma burada qalmasınlar. Əzizin dostlarından biri Seyid isə əlsiz, ayaqsız qalmaq istəməyib, bilərəkdən gözlərini kor edir və həbsxanaya qayıdır. Ağır katorqa işləri 10 adamın işini təkbaşına görən, pəhləvan cüssəli Əbil Vəfanı isə elə hala salır ki, bükülmüş cüssəsi həbsxananın bir küncünə atıldıqdan sonra taqətsizlikdən tərpənə belə bilmir, bir dəri, bir sümük qalmış bədəninə milçəklər qurd salır, iylənərək ölümə məhkum halda günlərini sayır (4, s.160-163).

Həbsxanada dostları ilə həmrəy olaraq aclıq aksiyasına qoşulmuş müəllifin əsərdəki obrazı Əziz də həbsxanada aclıq aksiyasına qoşulur. Bu epizodda müəllif aclığa dözməyib ölənlər olduğunu, nəfəsi aclıq qoxuyanların sayıqlamalarını, aclığın dayandırılması qarşılığında həbsxana müdiriyyəti ilə apardığı danışıqları və sonunda tələblərinə nail olduqlarını real təsvir etməklə əslində mübarizədən qalmadıqlarını, nə vaxtsa azad olacaqlarına və qalib gələcəklərinə ümidli olduqlarını ifadə etmişdir.

Aclıq aksiyasından sonra onu müayinə edən həkim bura iş üçün gəldiyini, azad olduğu halda həbsxananın onu sıxdığını, hər gün şahidi olduqlarını həzm edə bilmədiyini dedikdə, Əziz bunun səbəbini belə izah edir:

"- Çünki siz təksiniz.

- Bəs siz? Siz tək deyilsiniz?
- Xeyr, mən tək deyiləm.
- Bu necə olur?
- Bütün dünyada haqq-ədalətin, xeyirxahlığın qələbə çalması üçün mübarizə aparan insanlar var.
- Bu mübarizənin xeyri nədir?
- Günlərin birində arzularımız çin olacaq, amalımıza çatacağıq.

- Nə vaxt?

- Bilmirəm. Amma mütləq olacaq. Ola bilsin həmin zaman biz heç həyatda olmayacağıq...” (4, s.151).

Beləliklə, Ş.Hatata qəhrəmanının timsalında ideyalarına daim sadiq qaldığını, apardığı haqq mübarizəsinin nə zamansa mütləq qələbə çalacağına ümidini ifadə edir. Yazıçı və qəhrəmanı ağır, keşməkeşli həyata, həbsxanada işgəncələrə, təhqirlərə dözərək, bəzi silahdaşlarının ölümünü, bəzilərinin isə tab gətirməyərək, qarşı cəbhəyə keçib xəyanət etmələrini yaşaya-yaşaya ayaqda durmuşdur.

Bu əsərlə amerikalı yazıçı Etel Lilian Voyniçin (1864-1960) 1897-ci ildə işıq üzü görmüş “Ovod” əsəri (5) arasında müəyyən süjet, obraz, ədəbi üslub paralelləri aparmaq olar. Belə ki, “Ovod” romanında da inqilabi təşkilatın gizli fəaliyyətindən, milli azadlıq mübarizəsindən bəhs olunur. Əsərin qəhrəmanı Artur Börton da Əziz kimi gənc, parlaq gələcəyi olan savadlı, arzularla dolu vətənpərvər, imkanlı ailənin övladıdır. Mübarizəyə qoşulan obraz bu yolda xəyanət də görür, təqiblər də, həbs də. Əlalxüsus, Voyniç qəhrəmanının həbsxanada yaşadığı işgəncə və təhqirləri, qəhrəmanın həbsxana divarları arxasında xatirələrə dalmaqla əsərin nəql olunması “Dəmir gözlük” əsəri ilə oxşar paralellər yaradır. Hər iki əsərdə qəhrəmanın həbsxanadan qaçması epizodu da təkrarlanmış ədəbi ştrixdir. Ş.Hatatanın bu əsərdən bəhrələnməsi haqqında 100 faizlik fikir söyləmək çətin olsa da, siyasi fəal həyat sürən müəllifin bu romanla tanış olmaması ehtimalı zəif ola bilər.

Bundan başqa, Əzizin (“Dəmir gözlük”) prototipi real obraz olduğu kimi, Arturun (“Ovod”) da real prototipi vardır. Ədəbi tənqidçilər həmin şəxsin XIX əsrdə yaşamış italiyalı vətənpərvər siyasətçi, milli azadlıq hərəkatı iştirakçısı Cüzeppe Madzini (1805-1872) olduğunu bildirirlər. E.L.Voyniç də qəhrəmanının Madzini şəxsiyyətinə bəslədiyi maraqdan doğduğunu etiraf etmişdir. Bəzi ədəbi tənqidçilər isə bu fikirdədirlər ki, yazıçı xanımın rusiyalı inqilabçı, ədəbiyyatçı Sergey Stepnyak-Kravçinski ilə tanışlığı, isti münasibətləri əsəri yazmağa, Ovod obrazını yaratmağa şövqləndirmişdir. Arturda həmçinin italiyalı inqilabçı, siyasi xadim Cezeppe Qaribaldinin (1807-1882) təsvirlərini də görmək mümkündür.

Birinci romandan fərqli olaraq Ş.Hatatanın “Tor içində” əsərinin qəhrəmanı isə uydurma obrazdır, müəlliflə heç bir əlaqəsi yoxdur. Bununla belə, obrazın real həyatda, əlalxüsus XX əsrin ikinci yarısında Misir həyatında prototipi çoxdur. Əsərdə cərəyan edən hadisələr xronoloji baxımdan ilk romandakı tarixi hadisələrin ardı kimi görünə bilər. Əgər ilk romanda qətiyyətli antimüstəmləkə mübarizə, onun iştirakçılarının işgəncə, zorakılıq dolu həbsxana həyatı təsvir edilirsə, ikinci roman həmin mübarizədən sonrakı reallığı əks etdirir. Burada yüksək ideallar naminə mübarizəsinə görə məhbus həyatı yaşamış Xəlil Mənsurun həbsxanadan çıxdıqdan sonra yaşadıqları təsvir olunmuşdur və müəllif yüzlərlə onu kimilərin taleyini, hisslərini, psixoloji durumunu açmışdır.

Birinci romanda təsvir olunan mübarizədən təxminən 50 il sonra baş verən tarixi hadisələr, ictimai-siyasi vəziyyət fonunda həbsxanadan çıxan bir çoxları yenə öz mübarizəsinə sadiqliyini qoruyub, Vətənin rifahı naminə görülən ümumi işlərdə payı olması üçün özlərini həyatda tapmağa çalışırlar. Bəziləri işgəncə, təhqir dolu həbsxana həyatından sonra real həyata adaptasiya ola bilmir, sıraları tərk edir. Bəzilərinin iş, çörək axtarışında tükəndiyinin şahidi olmaq mümkündür. Bəziləri isə - məsələn Xəlil Mənsur kimi, mübarizəni davam etdirməkdən vaz keçir, sakit, qarşıda qorxusuz günlər vəd edən həyatı seçir. Əlbəttə, bu onların öz ideyalarından, inandıqları müqəddəs dəyərlərdən döndükləri, xəyanət etmələri demək deyil, sadəcə onlar mübarizə yolundan çəkilirlər. Bu, onların keçmişdə çəkdikləri əzab-əziyyət, həbsxana iztirabları, təhqirləri bir daha yaşamamaq, bu gün çətinliklə qazandıqlarını yenidən itirməmək istəkləri ilə də bağlı ola bilər. 50 yaşında güclə özünə iş tapıb, sevdiyi qadınla ailə quran, övlad sahibi olan obrazın qəlbində hələ də inqilabi meyillər qalır. Xəlil Mənsur keçmişi ilə fəxr edir, həbsxana işgəncələrinə, məhrumiyyətlərinə baxmayaraq mübarizəsinə xəyanət etmədiyini, sonuna qədər getdiyini dəfələrlə özü-özünə aşılayaraq daxilən mənəvi bütövlüyünü qoruyub saxlamağa çalışır. Lakin Həmkarlar Komitəsinin fəalları onu yenidən mübarizənin qaynar burulğanına çəkmək istəsələr də, buna nail ola bilmirlər. O, kənardan durub seyriçi mövqe tutmağı seçir, amma onların mübarizələrinə haqq qazandırır, istənilən dəstəyi dəfələrlə göstərir.

Daxilində belə ikili mübarizə getdiyi anda silahdaşlarından özünü məhrum edən obraz həyat yoldaşına da lazım olmadığını, ona az diqqət ayrıldığını düşünür. Bu psixoloji durum mənəvi təlatümlər, atılmış sindromu yaşayan Xəlili yanlış istiqamətə meyilləndirir. Mübarizəni, ailəni tərk edən obraz özünü amerikalı xanımın himayəsi altına salır, bununla həyatda nəyəsə nail olacağını, gərəkli olduğunu başqalarına sübut edəcəyini düşünür. Həmin amerikalı xanım isə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin agenti olduğundan Xəlil artıq mövqelərini Misirdə möhkəmləndirmək istəyən ABŞ-ın toruna düşmüş olur. Əsərin sonunda həmin agentin qətlində ittiham olunan Xəlili yenidən məhkəmə zalında görürük və qarşıda onu yenə həbsxana həyatı gözləyir.

Beləliklə, Ş.Hatatanın bu iki romanını ədəbi və tarixi prizmadan təhlil etməklə XX əsrin sonu və bilavasitə XXI əsrin əvvəllərində Misirdə formalaşmış siyasi rejim, ictimai şüur, yaşanan məişət problemləri haqqında müfəssəl təsvir əldə etmək mümkündür. Əminliklə demək mümkündür ki, yazıçı həmin dövrə aid ən həssas, önəmli məqamları əsərlərinə köçürməklə Misirin real ictimai-siyasi mənzərəsini yaratmağa tam müvəffəq olmuşdur.

## ƏDƏBİYYAT

1. Ватолина Л. Современный Египет. Москва, Ленинград, 1994.
2. Луцкий В.Б. Новая история арабских стран. Москва, 1966.
3. Русская планета. Востоковед Андрей Коротаев прочитал лекцию о главных причинах недавних революций в мусульманском мире. http://rusplt.ru/world/arabskaya_vesna.html
4. Шериф Хетата. Железное око. В сетях. Москва, 1988.
5. Этель Лилиан Войнич. Овод. Москва, 2010.

## *РЕЗЮМЕ*

***Хумар Алекперова***

### *Отражение политических реалий Египта конца XX века в романах Шерифа Хетаты*

***Ключевые слова**: Шериф Хетата, Египет, новая арабская литература, автобиографический роман, антиимпериалистическая борьба*

Шериф Хетата (1923-2017) один из самых известных представителей современной египетской литературы. Врач по профессии, активно занимался журналистикой и профессиональной писательской деятельностью, читал лекции по литературе в США и Великобритании. Участвовал в антиимпериалистической борьбе против английской колонизации в Египте, из-за политической деятельности на многие годы был заключен в тюрьму.

В 1964 году женился на египетской писательнице, феминистке и политической активистке Наваль Аль-Саадави. Она, как и Шериф Хетата, имеет диплом врача, является основателем Ассоциации санитарного просвещения Египта и Ассоциации египетских женщин-писательниц.

Характерные черты творчества писателя - детальное отражение политической жизни Египта конца XX века, глубина передачи аспектов нравственно-психологического развития литературных образов.

В статье рассмотрены: автобиографический роман Шерифа Хетаты «Железное око» и роман «В сетях», где развернуто проанализированы общественно-политическая жизнь и антиимпериалистическая борьба египетского народа против английской колонизации в конце прошлого столетия.

## *SUMMARY*

***Khumar Alakbarova***

### *Reflection of the political realities of Egypt in the late 20th century in the novels of Sharif Hatata*

***Keywords**: Sharif Hatata, Egypt, modern Arabic literature, autobiographical novel, anti-imperialist struggle*

Sharif Hatata (1923-2017) is one of the most famous representatives of modern Egyptian literature. A physician by profession, he was actively involved in journalism and professional writing, lectured on literature in the United States and Great Britain. Later on he was imprisoned for many years due to his political activities, in particular participation in the anti-imperialist struggle against British colonization in Egypt.

He married the Egyptian writer, feminist and political activist Nawal Al-Saadawi in 1964. She, like Sharif Hatata, holds a medical degree and is the founder of the Egyptian Health Education Association and the Egyptian Women Writers Association.

The characteristic features of the writer's work include a detailed reflection of the political life of Egypt at the end of the 20th century, and the depth of transmission of the aspects of moral and psychological development of literary images. The article examines the autobiographical novel of Sharif Hatata "The Eye with an Iron Lid" and the novel "The Net", which extensively analyze the social and political life and the anti-imperialist struggle of the Egyptian people against British colonization at the end of the last century.